8 may / 2021

# Azərbaycan Yazıçılar Birliyi Moskva bölməsindən

Mənalı, işıqlı, zəngin, uzun, barlı-bərəkətli örnək bir şair ömrü, şirinli-acılı, ağrılı-nəşəli, əzablı-rahat, müdrik və kamil, ləyaqətli bir insan ömrü yaşadı Fikrət Qoca! Azərbaycan ədəbiyyatının minillik poeziya səltənətində özünün bənzərsiz taxt-tacını məharətlə qura bildi Fikrət Qoca! Dövrümüzün şairlər sıxlığında axına qoşulub, gərdişin burulğanında itib-batmadı, seçilib-sayılanlar cərgəsinə çıxa bildi, qalxdığı uca məqamda büdrəmədən axıra kimi dəyanətlə duruş gətirdi, elin-obanın sevimlisi oldu, milli-mənəvi dəyərlərimiz sırasına qatıldı! Nahaq dünyadan Haqq dünyaya alnıaçıq, üzü ağ, əməli saleh, qəlbi söz incilərilə dolu köç etdi Fikrət Qoca!

Onu yaxından tanıyan, dəyərləndirən insanlar kimi güman edirik ki, böyük şairimiz Fikrət Qocanın məkanı Haqq dünyamızın Cənnət guşəsində olacaq. Allah qəni-qəni rəhmət eləsin! Əbədi məkanı Cənnət olsun!

Mərhum şairimizin yaxınlarına, dostlarına, doğmalarına, ailə üzvlərinə, cəmi söz xiridarlarına, millətimizə dərin hüznlə başsağlığı verir, hamımıza səbr arzulayır və axirət dünyasının hər birimizə aid olmasının qaçılmazlığı haqqında hər an düşünmək xatırlatması ilə:

Azərbaycan Yazıçılar Birliyi Moskva bölməsinin sədri Abuzər Bağırov və onun bu başsağlığına qoşulan moskvalı həmkarları: Alla Axundova, Nəsib Nəbioğlu, Samid Ağayev, İlham Bədəlbəyli, Zümrüd Quliyeva, Sultan Mərzili, Əliş Əvəz, Afaq Şıxlı, Valeh Saleh, Maya Bədəlbəyli, Əşrəf Hüseynli, Abbas Ağdabanlı, Nilufər Şıxlı, Abbas İlham, Yavər Həsən, Yaşar Süleymanlı, Rizvan Cəfərli.